

# Dövlətçiliyə qarşı xəyanətin qarşısını Heydər Əliyev qətiyyətlə aldı

***1991-1992-ci illər, 1993-cü ilin birinci yarısı hamımızın yadındadır. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ilk illər ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi və siyasi səbatsızlığı ucbatından respublikada özbaşınalıq, xaos baş alıb gedirdi. Həmin illər müstəqil respublikamızın həyatında anarxiya, özbaşınalıq dövrü kimi səciyyələndirilir. Çox böyük çətinliklər bahasına qazandığımız müstəqilliyimizin yenidən itirilməsi, dövlətçiliyimizin məhv olması təhlükəsi yaranmışdı. Tez-tez dövlətçiliyimizə qarşı təhdidlər olur, hakimiyyəti ələ keçirmək üçün qeyri-qanuni silahlı birləşmələr qarşı-qarşıya dayanırdı. Ulu öndər Heydər Əliyevin rəhbərliyindən sonra ölkədə tədricən nizam-intizam yaradıldı. Məhz Heydər Əliyevin qətiyyəti, müdrikliyi, dövlət idarəçiliyindəki zəngin təcrübəsi dövlətçiliyə qarşı çıxanlara, bəd niyyətlərdən əl çəkməyənlərə tarixi bir dərs verdi.***

Bir yandan xarici havadarlarına arxalanan erməni işğalçılarının ardı-arası kəsilmədən törətdikləri vəhşiliklər, digər tərəfdən isə daxildəki hakimiyyət hərislərinin çirkin əməlləri ölkəmizi getdikcə uçuruma, müstəqilliyimizi məhvə yaxınlışdırırdı. Belə qüvvələrin ən təhlükəlisi Xüsusi Təyinatlı Polis Dəstəsi idi. Bu dəstə ona görə təhlükəli hesab olunurdu ki, yüksək dərəcədə silahlanmışdı və istədiyi hərəkəti edirdi. XTPD-nin özbaşınalığı, cinayət əməlləri baş alıb gedirdi. Onun törətdiyi cinayətlərin qarşısını almaq mümkün deyildi. Çünki XTPD dövlətin əsas güc strukturlarından olan Daxili İşlər Nazirliyinin tərkibində idi. Getdikcə azğınlaşmış dəstəyə rəhbərlik Rövşən Cavadov və Xətai rayon prokuroru işləyən Mahir Cavadov qardaşları hakimiyyətə diktə etmək, ona təzyiq göstərmək, hədə-qorxu gəlmək iddiasından əl çəkmirdilər.

Xatırladaq ki, 1994-cü ilin oktyabr hadisələri zamanı da Xüsusi Təyinatlı Polis Dəstəsi rəhbər vəzifəli şəxslərə sui-qəsd etmiş, qan tökmüş və dövlət çevrilişinə cəhd göstərmişdi. Həmin ili xatırlayanlar yaxşı bilirlər ki, o vaxt müstəqil respublikamız üçün nə qədər qorxulu və həyəcanlı idi. Yalnız ulu öndər Heydər Əliyevin müdrikliyi, qətiyyəti sayəsində o vaxt dəhşətli olaylardan xilas ola bilmişdi.

Hamı elə düşünürdü ki, möhtərəm Prezidentimizin humanist addımından, milli həmrəyliyə, birliyə çağırışından sonra Xüsusi Təyinatlı Polis Dəstəsi – Mahir və Rövşən Cavadov qardaşları öz cinayətkar əməllərindən əl çəkəcək, dövlətçiliyimizə arxadan zərbə vurmayacaqlar. Amma belə olmadı. Cəmi bir neçə ay keçməmiş, Cavadov qardaşları yenidən hakimiyyəti ələ almaq iddiasına düşdülər. Ayrı-ayrı müxalifət qüvvələrindən, xarici kəşfiyyat orqanlarından, respublikamızın müstəqilliyini gözü götürməyən və yerli xəyanətkarlardan hərbi və siyasi dəstək alan Cavadov qardaşları hakimiyyəti devirmək, bir çox ictimai-siyasi xadimləri qətlə yetirmək niyyətlərini gizlətmədilər. Onların bu hərəkəti dövlətə açıq- saçıq meydan oxumaq, hakimiyyəti silah gücünə mənimsəmək cəhdi idi.

1995-ci ilin martında Azərbaycanın başı üzərində yenə də qara buludlar dolaşırdı. Həmin hadisələrdən 27 il ötsə də, xalqımız xəyanətkar əməlləri, dövlət çevrilişinə cəhdi hələ də unutmur. Mərd oğul və qızlarımızın qanı bahasına əldə olunan müstəqilliyimiz növbəti dəfə məhv olmaqla üz-üzə idi. Hərcmərclikdən, özbaşınalıqdan yaxasını yenicə qurtaran ölkəmizin beynəlxalq aləmə inteqrasiyasını həzm edə bilməyən xainlər respublikamızı yenidən fəlakətə sürükləyirdilər. Məkrli düşmən qüvvələr 1993-cü ilin yayından sonra dəfələrlə puç olmuş xain niyyətlərini həyata keçirmək üçün “omon”çuların əli ilə açıq hərbi mübarizəyə, silahlı qarşıdurmaya keçmişdilər. Martın əvvəllərində Qazaxda və Ağstafada başlanan dövlət çevrilişinə cəhd getdikcə paytaxta doğru irəliləyirdi.

Qabaqcadan planlaşdırılmış dövlət çevrilişinə cəhd Tovuz bölgəsindən başlandı. 12 mart 1995-ci ildə Azərbaycanın hüquq-mühafizə orqanlarına Tovuz bölgəsinin ərazisində Gürcüstana doğru gedən yolda Dövlət Yol Polisi işçilərinin dayanma tələblərinə baxmayaraq, içərisində silahlı adamlar olan 4 avtomobilin DYP postunun yanından keçməsi barədə məlumat daxil olur. Hüquq-mühafizə orqanları XTPD zabitlərinin müşayiəti ilə içərisində 150 ton mis daşınan avtomobilləri saxlaya bilir. Bundan dərhal sonra Qazax rayonu XTPD üzvləri və onlara qoşulmuş silahlı mülki şəxslər Qazax Rayon Polis Şöbəsini və bir hərbi hissəni ələ keçirir, bir neçə zirehli texnika ilə Ağstafa rayonuna doğru hərəkət edir. Onlar Ağstafa yaxınlığında yol polisi postunu tutaraq, əməkdaşları tərksilah edirlər. Sonra şəhər istiqamətində davam edən “omon”çular səhərə yaxın Ağstafa Polis Şöbəsini ələ keçirirlər. Vəziyyət getdikcə ağırlaşırdı.

Martın 14-də Azərbaycanın o vaxtkı Daxili İşlər naziri Ramil Usubovun XTPD-nin ləğv edilməsi ilə bağlı əmri televiziyada elan edildi. Bu qərarın qəbul edilməsinin əsas səbəbi XTPD-nin idarə olunmayan bir vahid halına gəlməsi, nazirliyin tabeliyindən tamamilə çıxması və kriminal aləmlə işbirliyi qurması idi. XTPD komandiri Rövşən Cavadova və döyüşçülərinə üç gün ərzində dəstədəki bütün texniki vasitələri və silahları təhvil vermək əmri verildi. Əmrə görə, silahı könüllü təhvil verənlər törətdikləri əməllərə görə cəzalandırılmayacaq və DİN sistemində müvafiq işlə təmin ediləcəkdi. Prezident Heydər Əliyev “omon”çuların silahı təhvil verib yerləşdikləri bazanı tərk etmələri üçün şərait yaradılmasına göstəriş verdi. Ulu öndər cinayətkar dəstəyə müraciət edərək bu əməllərindən, bəd niyyətlərindən əl çəkmələrini tövsiyə etdi. Bildirdi ki, tökdükləri qanlara, etdikləri cinayətlərə son qoymağın vaxtı gəlib çatıb: “Ümumiyyətlə, dəstəyə və Rövşən Cavadova deyirəm. Bu cinayətkar əməllərinizdən əl çəkin, təslim olun! Silahlar bu gün təhvil verilməli, oradan çıxıb hərə öz yerinə getməli, təslim olmalıdır. Dövlətlə dövlətçilik etmək olmaz. Azərbaycanın dövləti var, xalq tərəfindən seçilmiş Prezidenti var”.

> ***İnanıram ki, xalqın müdrikliyi, inamı, müstəqilliyə bağlılığı bu gün də bizi bu vəziyyətdən çıxaracaqdır. Gəlin hər şeyi bir kənara qoyaq, dövlətçiliyimizi, müstəqilliyimizi müdafiə etmək yolunda əl-ələ verərək irəli gedək.***
>
> ***Azərbaycan Prezidenti Heydər Əliyevin 1995-ci il martın 15-də televiziya və radio ilə xalqa müraciətindən***

Lakin cinayətkar dəstə bütün bunlardan bir nəticə çıxarmadı. Cavadov qardaşları dövlət başçısının bu humanist addımını zəiflik kimi qəbul edərək ona məhəl qoymadılar. XTPD-nin başçısı Rövşən Cavadov Xətai rayonunun o vaxtkı prokuroru, qardaşı Mahir Cavadovla birlikdə Prezident qarşısında müəyyən şərtlər qoydular. Ertəsi gün Prezident Heydər Əliyev XTPD komandiri Rövşən Cavadovu daxili işlər nazirinin müavini vəzifəsindən azad etdi.

Cəmiyyətdə dövlət çevrilişinə cəhd göstərənlərə qarşı nifrət yaranmışdı. Ulu öndərin ətrafında sıx birləşmiş xalq xəyanətkar, cinayətkar əməllərə son qoyulmasını tələb edirdi. Rövşən Cavadovun adamlarının, eyni zamanda, dövlət çevrilişinə cəhddən faydalanmaq həvəsinə düşən dağıdıcı müxalifət partiyalarının nümayəndələrinin xalq arasında apardıqları qızışdırıcı çağırışları isə heç bir nəticə vermirdi. Əksinə, belələri ictimaiyyətin qınağına tuş gəlir və rədd edilirdi.

Respublika Prokurorluğunun istintaq materialından: “İstintaqla tam sübuta yetirilib ki, həmin adamlar, yəni Xüsusi Təyinatlı Polis Dəstəsinin başında duranlar ayrı-ayrı dövlətlərin xüsusi kəşfiyyat orqanları qarşısında müəyyən öhdəliklər götürmüşdülər. Təbii ki, onlara da cavab verməli idilər. Ona görə də mart hadisələri baş verdi”.

Cinayətkarlar bilirdilər ki, onlar dövlətin vəd etdiyi humanist addımlar nəticəsində indiki məsuliyyətdən azad olunurlar. Amma əvvəllər törətdikləri cinayətlərə görə cavab verəcəklər. Adam oğurluğu, qətllər, qarətlər və digər cinayətlərdən yaxa qurtara bilməyəcəklər.

1995-ci ilin Mart hadisələri milli dövlətçiliyimiz üçün ciddi təhlükə idi. Bununla bərabər, həmin hadisələr həm də ölkəmizin daxilində özünə yer tapmağa çalışan və xarici qüvvələr tərəfindən idarə edilən siyasiləşmiş silahlı dəstələrin ortadan qaldırılmasına, cinayətkarların cəzalandırılmasına da rəvac vermişdi. Lakin ulu öndər Heydər Əliyevin müdrikliyi, dövlət idarəçiliyindəki zəngin təcrübəsi və qətiyyəti sayəsində növbəti dəfə dövlət çevrilişinə cəhdin qarşısı alındı. Həmin il martın 17-də Prezident Heydər Əliyevin yanında keçirilmiş müşavirədə ulu öndərin səsləndirdiyi fikirlər xalqın gələcəyə olan inamını daha da möhkəmləndirdi: “Mən hesab edirəm ki, bu gün biz irəliyə daha inamla, nikbinliklə baxa bilərik. Qarşımızdakı planların həyata keçirilməsi üçün daha sərbəst fəaliyyət göstərə bilərik və əminəm ki, bizim gələcəyə doğru yolumuz uğurlu olacaqdır”.

**Əliqismət BƏDƏLOV,**
**“Xalq qəzeti”**